# T□cili! Az□rbaycandakı d□hş□tli partlayışla bağlı bütün gizlinl□r ortaya çıxdı

□□□□□□□□□, 21 □□□□□□ 2017 13:44



Bu gecə Səbaildə ər-arvadın qaz partlayışı zamanı xəsarət alması ilə bağlı bəzi təfərrüatlar məlum olub.

"Azəriqaz" QSC-nin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbəlayev Lent.az-a açıqlamasında bildirib ki, hadisə blokda deyil, mənzilin dəhlizində olub.

İ. Kərbəlayevin sözlərinə görə, dəhlizdən keçən qaz borusunda sızma olub və evin sakinləri də ehtiyatsız davranıblar: "Dəhlizdən qaz iyi gəldiyini hiss edib, nə olduğunu aydınlaşdırmaq istəyiblər. Alışqandan istifadə ediblər. Bu zaman partlayış yox, sadəcə yanğın qeydə alınıb. Həmin an evin qapısı da açıq olub. Hadisə zamanı evə elə də ciddi ziyan dəyməyib. Hazırda faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır".

Qurum rəsmisi deyib ki, əhali arasında geniş miqyaslı maarifləndirmə işləri aparılmasına baxmayaraq belə xoşagəlməz hallar çox olur: "Əhaliyə bildirəm istəyirəm ki, təbii qazdan istifadə zamanı texniki tələblərə və təhlükəsizlik qaydalarına ciddi əməl etmək, ehtiyatlı davranmaq lazımdır. Əks halda hər hansı bir ehtiyatsızlıq bədbəxt sonluqla nəticələnə bilər. Qazdan istifadə anlayışı olmayanların və azyaşlıların təbii qazdan istifadəsinə icazə vermək olmaz. Evdə qazın və ya qaz borusunun yerini dəyişdirərkən mütəxəssis köməyinə müraciət etmək lazımdır. Qaz borusunun yerini özbaşına dəyişmək olmaz. Qaz boruları əlçatan və gözlə

görünən yerlərdə olmalıdır ki, zamanında texniki qulluq göstərilsin".